**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2014-cü ilin yanvar-dekabr ayları ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan sürətli inkişaf 2014-cü ildə də davam etmiş, istehsal və xidmət sahələrində yüksək artım sürəti təmin edilmişdir. Ümumi daxili məhsul istehsalı 2014-cü il ərzində ötən illə müqayisədə 2.8 faiz artaraq 59.0 milyard manata çatmışdır. ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi 6264.1 manat və ya 7985.9 ABŞ dolları təşkil emişdir..

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində 2014-cü ildə 31.9 milyard manatlıq məhsul istehsal olunaraq 2013-cü il illə müqayisədə 0,7 faiz azalmışdır. Sənaye məhsulunun 69,6 faizi mədənçıxartma bölməsində, 24.0 faizi emal bölməsində, 5.7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0.7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olmuşdur.

Mədənçıxrma bölməsinin məhsullarından 41.9 milyon ton və ya 2.8 faiz az xam neft, 18.7 milyard kub metr, yaud 4.9 faiz çox əmtəəlik qaz hasil olunmuşdur.

Emal bölməsində qida məhsulları istehsalı 1.4 faiz, içki istehsalı 8.1 faiz, toxuculuq sənayesi məhsulları istehsalı 1.9 faiz, geyim istehsalı 59.9 faiz, hazır metal məmulatlarının istehsalı 6.2 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 11.0 faiz, elektrik avadanlığları istehsalı 12.1 faiz, kimya sənayesi məhsulları 32.0 faiz, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı 80.9 faiz, tikinti materialları istehsalı 22.2 faiz, avtomobil və qoşquların istehsalı 58.2 faiz, sair nəqliyyat vasitələri istehsalı 3.4 dəfə, maşın və avadanlıqlarının quraşdırılması və təmiri 41.0 faiz artmışdır.

**2014-cü ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2014-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 17615.8 milyon manat həcmində vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 9654.0 milyon manat ( ümumi investisiyanın 54.8 faizi), bank kreditləri 540.9 milyon manat (3.1 faizi), büdcə vəsaitləri 6452.2 milyon manat (36.6 faizi), büdcədənkənar fondların vəsaitləri 324.6 milyon manat (1.8 faizi), əhalinin şəxsi vəsaitləri 566.9 milyon manat (3.2 faizi), digər vəsaitlər isə 77.2 milyon manat (0.5 faizi) təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**
Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2014-cü ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 222.0 milyon ton və ya 1.9 faiz çox yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 58,0 faizi avtomobil, 27.7 faizi boru kəməri, 9.8 faizi dəmir yolu, 4.5 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Ötən ildə özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 3.5 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 76.4 faiz təşkil etmişdir.

Nəqliyyatçılar 1.8 milyard nəfərə və ya 2013-cü illə müqayisədə 4.7 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88.0 faizi avtomobil, 11.8 faizi metro nəqliyyatının xidmətlərindən istifadə etmişdir.

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması 2014-cü ildə 21.8 milyon ton yük daşınmışdır. İl ərzində orta hesabla sutkada 592 vaqon yüklənmiş, 608 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir

yolunun Şimal istiqaməti üzrə 22.0 min ton, Qərb istiqaməti üzrə 6.8 min ton və Cənub istiqamətləri üzrə 5.4 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 9.9 milyon ton təşkil etmişdir. Yüklərin 56.1 faizini neft yükləri, 43.9 faizini isə quru yüklər təşkil etmİş və demək olar ki, bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. İl ərzində **dəniz limanlarında** 12.0 milyon ton yukləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 86.9 faizini beynəlxalq tranzit yüklər təşkil etmişdir. 2015-ci ilin yanvar ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 167.8 min ton idxal yüklərin qalığı olmuşdur.

**Nəqliyyat sektorunda yük daşınması, min ton**




Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan **avtomobil nəqliyyatı** ilə 128.6 milyon ton yük, 1.6 milyard sərnişin daşınmış və əvvəlki illə müqayisədə müvafiq olaraq 2.7 faiz və 4.8 faiz artmışdır. Sərnişinlərin 96.3 faizi avtobus, 3.7 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 2.8 faiz, sərnişin dövriyyəsi isə 5.1 faiz artmışdır.

**Metro nəqliyyatı**nın xidmətlərindən il ərzində istifadə etmiş sərnişinlərin sayı 215.5 milyon nəfər olaraq 4.3 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 1.8 milyon və ya 7.6 faiz çox sərnişin daşınmış, daşımanın 99.6 faizi dövlət bölməsinə, 0.4 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə daşınmış yüklərin həcmi 123.8 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 45.8 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan H. Əliyev adına BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və il ərzində bu kəmər vasitəsilə 34.6 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə 5.6 milyon ton tranzit Türkmənistan nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 21.9 milyard kub-metr qaz nəql edilmişdir. Nəql edilmiş qazın 29.9 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 6.5 milyard kub-metr qaz ötürülmüşdür.

"**İpək yolu" nəqliyyat dəhlizi**nin Azərbaycana məxsus hissəsində 2014-cü ilin yanvar-noyabr aylarında 53.1 milyon ton yük, 278.0 milyon nəfər və ya 7.7 faiz çox sərnişin daşınmışdır. Yüklərin 26.3 milyon tonu və ya 49.7 faizi avtomobil, 18.3 milyon tonu və ya 34.4 faizi dəmir yolu, 8.5 milyon tonu və ya 15.9 faizi dəniz nəqliyyatı ilə daşınmışdır. Yük daşımaları fəaliyyətindən 465.9 milyon manat, sərnişin daşımasından isə 97.9 milyon manat gəlir əldə olunmuş və müvafiq olaraq 10.7 faiz və 13.0 faiz artmışdır.